Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 99 (987) 28 may - 30 may 2015-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# TOVUZDA PROBLEMLƏR UĞURLA ÇÖZÜLÜR

**İşğalçı Ermənistanla həmsərhəd ərazilərimizdən biri olan Tovuz rayonu müharibənin ağır fəsadlarını yaşamaqla yanaşı, quruculuq-abadlıq işlərinin geniş miqyaslı əhyata keçirilməsində önəmli yerlərdən birini tutan bölgələrimizdəndi. Bu bölgənin tarixinə nəzər salanda onda məlum olur ki, hələ sovet dönəmində özünün böyük iqtisadi potensialı ilə həmişə diqqət mərkəzində olan iqtisadi uğurlara, əmək qələbələrinə imza atan Tovuz rayonu və onun sakinləri öz güzəranlarının yaxşılaşdırılması üçün həm əmək növbəsində, həm də inkişafın sürətini artırmaq istiqamətində həmişə digər bölgələrimizdən fərqləniblər. Bu isə heç də təsadüf deyil. Xüsusilə ona görə ki, Tovuz rayonun coğrafi ərazisi daha çox münbit torpaqlardan ibarətdir.**

**"... Bu gün bizim gözəl ölkəmizdə - sürətlə inkişaf edən ölkədə hər bir vətəndaş üçün bütün imkanlar var. Çünki ölkəmizin dinamik inkişafı, yeni iş yerlərinin, yeni istehsalat sahələrinin açılması əlbəttə ki, hər kəs üçün imkan yaradır. O insanlar ki, böyük biliklərə malikdirlər, onlar həyatda öz layiqli yerini tuta bilərlər."**

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham Əliyev***



Əsasən kənd təsərrüfatının - üzümçülük, taxılçılıq, heyvandarlıq istiqamətlərinin geniş inkişaf etdirildiyi Tovuz rayonunda sovet dönəmində kifayət qədər emal müəssisələri də mövcud idi. Burada həmçinin kənd təsərrüfatı mütəcxəssislərini hazırlanması istiqamətində də böyük işlər görülürdü. Təbii ki, indii bir uzaq xatirə təmiri bağışlayan həmin o illər, o illərin inkişaf surəti müəyyən parametrlərlə bugünümüzə də bir növü transfer olunubdu. Yəni indi adamlar bilavasitə dövlət və proqrammı ilə yanaşı, özlərinin fərdi fərdi fəaliyyət proqramlarını da gerçəkləşdirə bilirlər. Daha açıq və konkret ifadə etsək, onda məlum olar ki, Tovuzda sahibkarlığın inkişafına iş adamlarının istəklərinin gerçəkləşdirilməsinə münbit şərait yaradılıbdı. Deməк olar ki, rayonda aparılan böyük quruculuq işlərində, xüsusilə tikinti-abadlıqda yerli imkanlardan daha çox faydalanan tovuzlular eyni zamanda da iş adamlarının, sahibkarların da onlara verdiyi dəstəkdən yararlanırlar.

Tovuz şəhərindəki abadlıq, quruculuq işləri, küçələrin, səkilərin müasir tələblərə cavab verən bir şəkildə tikilib qurulması, üzlüklərin, tamet döşəmələrin çəkilməsi demək olar rayonun ümumi mənzərəsini göz oxşayan, ürək açan edibdi.

Tovuzda olarkən baş çəkdiyimiz Ulu Öndərin adını daşıyan istirahət parkında yaradılmış şərait həqiqətən təqdirəlayiqdi. Burada Heydər Əliyev muzeyinin, eləcə də müxtəlif inzibati binaların yenilənməsi, bərpası şəhərin ümumi mənhərəsinə əlavə olunmaqla Tovuzun görkəmini köklü surətdə dəyişibdi.



Yeri gəlmişkən, onu da xatırladaq ki, Tovuz şəhərində və onun kəndlərində işıq, qaz, su, telefon və digər kommunal sahələri əhatə edən xətlərin yenilənməsi, köhnələrin təmir olunması istiqamətində də böyük işlər görülüb və görülür. Bu da öz növbəsində rayon sakinlərinin qarşılaşdıqları problemlərin aradan qaldırılmasında kifayət qədər köklü bir təhsil vasitəsidir. Yəni adamların işıq, qaz, su tələbatının vaxtlı-vaxtında ödənilməsi rayonda sosial problemlərin böyük bir hisəsininhəll olunması deməkdir.

Kənd təsərrüfatı rayonu olan Tovuzda heyvandarlıq, əkinçilik, quşçuluq sahələri də paralel olaraq inkişaf etdirilir. Rayon icra ahkimiyyəti başçısının cari ilin birinci rübünə dair hesabatında da göründüyü kimi, son illərdə Tovuzda mal-davarın baş sayı kifayət qədər artmış, bu da öz növbəsində ət, süd, yun istehlsalının artmasına səbəb olmuşdu. Əgər rəqəmlərlə ifadə etsək, onda məlum olar ki, bu ilin birinci rübündə rayonda ət istehsalı təqribən 3 faiz, süd istehsalı 1,1 faiz artaraq ötən ilin müvafiq dövrünü kifayət qədər üstələmişdi. Bu artımı quşçuluq sahəsinə də aid etmək olar və onda ortaya konkret rəqəm çıxa bilər ki, bu da 3 faizdən artıq istehsal deməkdi. Yəni ötən ilin müvafiq dövründəkindən bu ilin birinci rübündə 3 faiz artıq yumurta istehsal olunbdu.

Düşmənlə üzbəüz dayanan Tovuz rayonunun əkin sahələri vatxlı-vaxtınla becərmək, suvarmaq, oradan bol məhsul götürmək o qədər də asan iş deyil. Hər an düşmən təhlükəsi ilə qarşılaşa bilən tovuzlular bu ilin birinci rübündə dövlətdən güzəştli şərtlərlə 1352 ton mineral gübrələr ala bilmişlər. Təbii ki, torpaqların vaxtlı-vaxtında gübrələrlə qidalandırılması, suvarılması, dəyirman preparatları ilə təmin edilməsi növbəti il üçün bol məhsulun əsasını qoyublar. Əgər rəqəmlərə müraciət etsək, onda görərik ki, bu il üçün kifayət qədər məhsula baza ola biləcək şəraitin yaradılması istiqamətində görülən işlərin sırasında rayonun 6600 nəfərdən artıq istehsalçısına 9000 hektardan artıq ərazidə yetişdiriləcək buğda məhsulu üçün 360 min manatdan artıq yardım göstərilib. Dövlətin ayırdığı bu vəsait istehsalçılara verilməklə onlarda həm qarşılarına qoyduqları məqsədə çatmağa, həm də bol məhsul əldə etməyə stimul yaradıbdı.

İstər Sahibkarlara Dəstək Fondu tərəfindən, istər Heydər Əliyev Fondu tərəfindən, istər ayrı-ayrı iş adamlarının özlərinin maddi gücü hesabına bu gün Tovuzda yeni iş yerlərinin açılması, bol məhsulun süfrələrə yol açması təmin edilir.

Onu da unutmaq olmaz ki, Tovuz rayonunda torpağın, yəni əkin sahələrinin su təminatı da rayon rəhbərliyinin diqqət mərkəzindədi. Elə bu səbəbdəndir ki, "Tovuzçay su anbarının istifadəyə verilməsi sonda rayondakı torpaq sahələrinin daha 4000 hektarının su təminatına şərait yaradacaq, imkan verəcəkdi. Həmçinin bununla paralel olaraq bu il rayonda mövcud olan subartezian quyularının təmirinə və daha 12 ədəd yeni quyunun qazılmasına da hər cür şərait yaradılmışdı. Yəni faktiki olaraq bu artezianların istifadəyə verilməsi Tovuzda torpaqla məşğul olan hər kəsin sevincinə səbəb olacaq.

**Rayonun su problemindən bəhs elərkən onu da qeyd etmək lazımdır ki, bu gün Tovuzun gözəlliyini artıran ünvanlardan biri də Tovuz çayının sahilindəki fəvvarələr gölünün və bütövlükdə burdakı istirahət kompleksinin istifadəyə artıq hazır olmasıdı. Deəmk olar ki, bu istirahət guşəsi həm tovuzlular üçün, həm də rayona qonaq gələnlər üçün rahat bir ünvan olacaq.**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ